

# Nazim Aslan oğlu Vəliyev – 60!

Bu günlərdə neft sənayesində tanınmış alim və peşəkar neftçi Nazim Aslan oğlu Vəliyevin 60 yaşı tamam olur.

Nazim Vəliyev 22 fevral 1960-cı ildə Tovuz rayonunun Bozalqanlı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-qaz-mədən fakültəsinə daxil olmuş və həyatını çətin, lakin şərəfli neftçi peşəsi ilə bağlamışdır. 1982-ci ildə institutu uğurla bitirərək Azərbaycan Dövlət Neft-Qaz Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutuna təyinat almış, orada "Neft-qaz yataqlarının işlənməsi və layihələndirilməsi" laboratoriyasında mühəndis, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrində çalışaraq neft sənayesinin tanınmış mütəxəssis və alimlərindən neft elminin nəzəri və tətbiqi sirlərini öyrənmişdir. İnstitutda işlədiyi müddətdə aspiranturaya daxil olmuş və 1990-cı ildə "Suvurma və mayeçıxarma templərinin tənzimlənməsi yolu ilə qeyri-bircins layların işlənmə effektliyinin artırılması" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bir qədər sonra onun savadı, yüksək peşəkarlığı və şəxsi keyfiyyətləri Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) rəhbərliyinin diqqətini cəlb edir və o, baş ofisdə işləməyə dəvət alır. 1993-cü ildə burada "Neft və qaz yataqlarının işlənməsi və ehtiyatların qiymətləndirilməsi" şöbəsində baş mütəxəssis kimi işə başlamış, 1997–1999-cu illərdə şöbə rəisinin müavini, 2003-cü ildə isə Baş ofisin Elm və texnika şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmiş, 17 ildən artıq vaxt ərzində elmi-texniki nailiyyətlərin və mütərəqqi texnologiyaların neft sənayesinə tətbiqi və inkişafı sahəsində böyük işlər görmüşdür. Eyni zamanda 1993-cü ildən bu günə kimi SOCAR-ın Baş ofisində Həmkarlar İttifaqı Komitəsinin sədri kimi çox məsuliyyətli bir ictimai vəzifə də daşımaqdadır.

Nazim müəllim hər zaman gördüyü işə böyük məsuliyyət hissi ilə yanaşır. O, Azərbaycanın həm quru, həm də dəniz yataqlarının işlənməsinə, layların neftveriminin artırılması üçün tətbiq olunan "ikinci" və "üçüncü" təsir üsullarının təkmilləşdirilməsi və yataqların neft-qaz hasilatları üzrə proqnoz göstəricilərinin hesablanması məsələlərinə nəzarət edir. O, SOCAR-ın "Neft və qaz yataqlarının işlənməsi" üzrə Mərkəzi Komissiyasının elmi katibi, Ehtiyatlar üzrə Mərkəzi Komissiyanın eksperti kimi bir sıra yataqların ehtiyatlarının hesablanması, yenidən hesablanması və işlənmə layihələrinin ekspertizasını həyata keçirmişdir. 105 elmi işin, o cümlədən 70-dən çox elmi məqalə və məruzə tezislərinin müəllifidir. Bir çox beynəlxalq konfrans və simpoziumlarda məruzələrlə çıxış etmiş, diplomlara, keçmiş SSRİ Neft Sənayesi Nazirliyinin və SOCAR-ın fəxri fərmanlarına, neftqazçıxarma, onun idarə edilməsi, marketinqi və s. üzrə beynəlxalq sertifikatlara layiq görülmüşdür.

Dünya Neft Şurasının, Dünya Enerji Xartiyasının Sənaye Məşvərət Şurasının, AMEA-nın Neft və Qaz İnstitutunun Elmi Şurasının, "Azərbaycan neft təsərrüfatı", "Azərbaycanda geofizika yenilikləri" jurnallarının redaksiya heyətinin üzvü, Azərbaycan Milli Neft Komitəsinin icraçı direktoru, SOCAR-ın Baş ofisinin Həmkarlar İttifaqı Komitəsinin sədri, SOCAR-ın "Açıq mətbuatda xidməti istifadə üçün" qrifi ilə nəşrə hazırlanan materialların ekspertizası üzrə ekspert komissiyasının sədri, SOCAR-ın Elmi-Texniki Şurasının koordinatoru kimi çox böyük ictimai işlər aparır. Artıq 27 ildir ki, hər il ənənəvi olaraq Bakıda keçirilən Beynəlxalq neft-qaz sərgi-konfransının müvəffəqiyyətlə keçirilməsində koordinator kimi məsuliyyətli bir funksiyanı həyata keçirir, müxtəlif xarici ölkələrdə keçirilən beynəlxalq sərgi-konfrans, konqres, simpozium və forumlarda SOCAR-ın nümayəndəsi kimi Azərbaycanı layiqincə təmsil edir.

Nazim müəllimin neft sənayesində səmərəli fəaliyyəti SOCAR rəhbərliyi və dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. O, Azərbaycanın neft sənayesinin inkişafında xidmətlərinə görə SOCAR-ın Fəxri Fərmanı, "Fəxri neftçi" döş nişanı, 2008-ci ildə "Tərəqqi" medalı, 2011-ci ildə "Əməkdar mühəndis" fəxri adı, 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycanda neft yataqlarından sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibətilə "3-cü dərəcəli Əmək ordeni" ilə təltif edilmişdir.

N.Vəliyev daim elmi-texniki bilik səviyyəsini artırmağa da xüsusi fikir verir. Belə ki, o Amerika Birləşmiş Ştatları, Norveç Krallığı və Yaponiyanın tanınmış elmi mərkəzlərinin təşkil etdikləri xüsusi kurslarda təhsil alaraq müvafiq Beynəlxalq sertifikatlara layiq görülmüşdür. O, SOCAR-da işlədiyi müddətdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına daxil olmuş və 2002-ci ildə Akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir. 2015-ci ildə Ümumdünya Texnologiya Universiteti və YUNESKO-nun Akkreditasiyası üzrə texnika elmləri doktoru və Beynəlxalq Ekoenergetika Akademiyasının professor-doktoru adlarını almış, "Caspian European Club"-un "Caspian Energy Award - 2015" mükafatına layiq görülmüşdür. Nazim müəllim Rusiya Mühəndislik Akademiyasının həqiqi (xarici) üzvüdür, 2016-cı ildə ona Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı verilmişdir.

Elm adamı, neftçi olmaqla yanaşı tanrı ona poeziyaya, sözə-sənətə qiymət vermək kimi keyfiyyətlər də bəxş etmişdir. "Neftçi" ədəbi-bədii dərnəyinin üzvü kimi onun şeirləri uzun illərdir ki, respublika qəzetlərinin səhifələrində dərc olunur. 2000-ci ildə onun "Sənsiz yaşamağa dəyməz" şeirlər kitabı "Qızıl qələm" mükafatına layiq görülmüşdür. 2009-cu ildə isə "İzin qalacaq" adlı ikinci şeirlər kitabı işıq üzü görmüşdür.

Nazim müəllim onun mütəxəssis-alim, layiqli insan kimi yetişməsi və formalaşmasında rolu olmuş insanları daim böyük ehtiram və hörmət hissi ilə yad edir ki, bu da onun yüksək mədəniyyətə və mənəvi dəyərlərə malik olmasından xəbər verir. O, gənc nəslə bir nümunə, onunla dostluq edən və SOCAR-ın Baş ofisində çalışan əməkdaşların sevimlisi, fəxr etdikləri bir şəxsiyyət, əsl həmkar-məsləhətçi və ziyalı bir vətəndaşdır.

60 yaşınız mübarək olsun Nazim müəllim!

Sizə uzun və sağlam həyat, şərəfli ömür yolu və gözəl günlər arzu edirik!

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin**
**birinci vitse-prezidenti,**
**akademik Xoşbəxt Yusifzadə**